

**Mədəniyyət düşünən və yaradan varlıq olan insanın mövcudluğu, onun daxili-mənəvi aləminin özünüifadəsi və parlaq görünən aynasıdır. Mədəniyyət bir növ insanın sirli-sehrli dünyası, fəal yaradıcı insanın özünü reallaşdırma və qiymətləndirmə bacarığı və qabiliyyəti, bio-sosial bir fenomendir.**

# QƏRB VƏ ŞƏRQ MƏDƏNİYYƏTLƏRİ KONTEKSTİNDƏ DİN MÜNASİBƏTLƏRİ

Mədəniyyətin yaranması ilə insanın müasir tipinin formalaşması və onun mədəniyyətinin inkişafı başlanmış, vahid bir proses olaraq bunlar bir-birini tamamlamışdır.

Bəşəri fikir dünyasında və tərəqqisində, mürəkkəb və ziddiyyətli insan həyatının bütün sahələrində millət və xalqların səyi və fəaliyyəti nəticəsində yaranmış mədəniyyət və sivilizasiyalar da mühüm rol oynamışdır. Bu tərəqqi eyni zamanda bəşəriyyətin sosial-mədəni həyatının, onun inkişafının bütün sahələrini əhatə edən mədəniyyətin inkişaf göstəricisidir. Bu mənada mədəni tərəqqi boş və zəminsiz olmayıb özünəməxsus mənbələri, ilkin maddi və mənəvi əsasları zəminində yaranmışdır. Ümumiyyətlə, insan psixikası mənəviyyat, onun inkişafı ayrı-ayrı dövrlərə xas olan mədəniyyət və sivilizasiyalarda öz təcəssümünü tapıb.

Mürəkkəb, çoxsahəli ictimai hadisə olan mədəniyyət cəmiyyət həyatının maddi və mənəvi tərəflərini, ictimai və fərdi şüurun bütün forma və təzahürlərini əhatə edən xüsusi mənəvi sistemdir. Bütün mənəvi nemətlər və sərvətlər, elmi nəzəriyyələr, texniki ixtira və nailiyyətlər, bədii-emosional vasitələr, bədii mədəniyyət, ictimai-əxlaqi normalar bu sistemin mürəkkəb strukturunu təşkil edir.

Min illər əvvəl yaranmış sivilizasiyalar arasında sosial-mədəni əlaqələr mövcud olmuşdur. Bu baxımdan, bəşəriyyətin inkişafının tarixi bütövlüyü sistemində onun qarşılıqlı əlaqəsi, qloballaşmanın daha qədim olduğu özünün tam aydın təsdiqini tapır. XX əsrin sonlarında bəşər həyatının və inkişafının vahid məkanda bütövləşməsi qloballaşma prosesinə tamamilə yeni cizgilər və meyillər gətirdi. Meydana gələn yeni münasibətlər qloballaşmanın miqyas və sərhədlərinin genişlənməsi zərurətini qarşıya qoydu. Bununla qloballaşma dövlətlər, xalqlar, millətlər, müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni imkanlar açır. Bu isə öz növbəsində müasir dövrdə bütün bəşəriyyətin iqtisadi, mədəni və digər əlaqələrin, qarşılıqlı münasibətlərin vahid ümumplenatar bir sistemə daxil olduğunu göstərir. İngilis etnoqrafı və tarixçisi E.Teylorun göstərdiyi kimi, sosial-mədəni dəyərlər, ümumiyyətlə, mədəniyyət yalnız ümumbəşəri olmayıb, həm də özündə ayrı-ayrı xalqlar üçün spesifik olan cəhətləri və xüsusiyyətləri də birləşdirir. Deməli, mədəniyyətin inkişafında təkcə ümumbəşəri deyil, həm də ayrı-ayrı xalqlar üçün ancaq onun özünəxas olan dəyərlər də vardır. Mədəniyyətin inkişafında təkcə ümumi amillər deyil, həm də konkret dövrün, mənəvi mühitin təsiri və onun mənimsənilməsi prosesi də mühüm rol oynamışdır.

Müasir dövrdə Qərb və Şərq sivilizasiyaları bir-birilə daha sıx qarşılıqlı əlaqədədir. Bəşər sivilizasiyasının gələcək taleyi Qərb-Şərq mədəniyyətlərinin qarşılıqlı əlaqələrindən daha çox asılıdır. Müasir dünya inkişafı artıq bu prinsipi reallığa çevirmişdir. Lakin müasir dövrdə Qərb mədəniyyətinin Şərq xalqlarının milli-mənəvi mədəniyyətinə təsiri və əlaqəsinə birmənalı yanaşmaq olmaz. Bir tərəfdən, elm və texnika sahəsindəki nailiyyətlər, demokratiya və plüralizm kimi Qərb mədəniyyətinin, Qərb ideya və dəyərlərinin ölkəmizə nüfuz etməsini müsbət qiymətləndirməklə yanaşı, digər tərəfdən onun bir çox dəyərləri milli-mənəvi mədəniyyətimizə nüfuz etməklə özünün müasir kommunikasiya vasitələri ilə gənc nəslin tərbiyəsinə, xalqımızın milli adət və ənənələrinə bəzən mənfi təsir göstərdiyini də qeyd etməliyik. Məhz milli-mənəvi dəyərlərin qarşılıqlı təsirində, mədəniyyətlərin yaxınlaşması və dialoqunda bu məsələlər unudulmamalıdır. Bütövlükdə isə bu qarşılıqlı münasibət və yaxınlaşma müsbət bir proses olaraq davam etməli və möhkəmlənməlidir.

Ümumiyyətlə, sivilizasiyalar onlar arasındakı fərqlərlə deyil, əsasən onların oxşar cəhətləri ilə şərtlənir. Doktor M.Xatəmi özünün "İslam, dialoq və vətəndaş cəmiyyəti" adlı əsərində "sivilizasiyaların toqquşması" ideyasına qarşı çıxır, Qərbin Şərq ölkələrinə qarşı apardığı müharibələri pisləyir, sivilizasiyalar, dinlər və xalqlararası dialoqa haqq qazandırır. Onun fikrincə, sivilizasiyaların dialoqu xalqların və dövlətlərin bərabərliyi deməkdir, dialoq o vaxt mümkün olur ki, onun hər bir iştirakçısı biri-birinə humanistcəsinə və bərabərhüquqlu mövqedən yanaşır. Kant yazırdı ki, insan əqlini maraqlandıran məsələlər nə bir əsrin, nə də bir millətin həll edə biləcəyi məsələlər deyil, bəşəriyyətin inkişafı ilə bağlı məsələdir. C.Nehru özünün "Dünya tarixinə nəzər" kitabında yazırdı ki, dünya sivilizasiyasının inkişafında Asiyanın rolunu danmaq ədalətsizlik olardı. Çünki Avropa millətlərinin çoxu öz mənşəyini Asiya xalqlarından götürmüş, onların hesabına mədəniləşmişdir. Avropanın bir çox görkəmli mütəfəkkirləri İslam Şərqində yaranan zəngin mədəniyyətdən və onun Avropa mədəniyyətinə təsirindən danışmış və onu yüksək qiymətləndirmişlər.

Cəmiyyətin mədəni yeniləşməsi, humanist ideyaların və prinsiplərin möhkəmlənməsi ancaq milli mədəniyyətlərin inkişaf meylinin ümumbəşəri dəyərlərlə vəhdəti sayəsində mümkündür. Bu mənada dünya mədəniyyətinə inteqrasiya olunan milli mədəniyyətlər yalnız milli məzmun kəsb etmir, həm də ümumbəşəri yönümü ilə fərqlənir. Ümumdünya mədəniyyəti əslində, bütün dünya xalqlarının birgə fəaliyyətinin yekunu, onların yaratdığı nailiyyətlərin və dəyərlərin məcmusudur.

Mədəniyyətlərin bütövlüyündən söhbət gedəndə, birinci növbədə, beynəlxalq məzmunlu, eyni zamanda rəngarəngliyi ilə fərqlənən, bənzərsiz və təkrarolunmaz milli mədəniyyəti özündə birləşdirən mədəniyyəti nəzərdə tutmaq lazımdır. Qloballaşma prosesində ən müxtəlif irq, mədəniyyət, etnik qrup və dinlərin ünsiyyəti, dialoqu getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Dünyada elə bir mədəniyyət yoxdur ki, etnik, milli və bəşəri aspektləri özündə birləşdirməsin.

Müasir qloballaşma dünyanın etnomədəni səviyyəsi, sivilizasiyalararası genişlənən əlaqələr, insan və mədəniyyət münasibətləri, Qərb-Şərq qarşılıqlı təsirində, onların gələcək perspektiv inkişaf meyli və yönümündə özünü daha aydın göstərir. Bu proses hazırda müxtəlif mədəniyyətlərə və dinlərə məxsus insanlar arasında daha sürətlə baş verir, dünyanın həllini gözləyən mürəkkəb sosial problemlər arasında daha aktual səslənir.

Lakin mədəniyyət və sivilizasiyaların inkişafı həmişə belə dinc olmamış, fərqlər, ziddiyyətlər, hətta qarşıdurmalar nəticəsində onların yaranması, inkişafı, süqutu baş vermişdir. Qərb-Şərq ziddiyyətlərinin minilliklərlə davam edən tarixi vardır. Lakin xristianlıq və islam dinləri yaranıb dünya dinlərinə çevrildikdən sonra da bu qarşıdurmalar, ziddiyyətlər davam etmişdir. Görkəmli ingilis tarixçisi və filosofu A.Toynli özünün "Sivilizasiyaların toqquşması", "Tarixin anlamı" kimi fundamental əsərlərində müxtəlif köklü, ideya əsaslı və dini-siyasi meyilli dünyabaxışlar və mədəniyyətlərdən dönə-dönə bəhs etmişdir. O, özünün "Sivilizasiyalar tarix məhkəməsi qarşısında" və digər əsərlərində yer üzündə 37 tarixi sivilizasiyanın olduğunu söyləmişdir.

Ümumiyyətlə, bəşər sivilizasiyası tarixində dinlərin hər birinin özlərinə xas inkişaf və fəaliyyət yolu olmaqla yanaşı, onlar arasında, xüsusən xristian və islam arasında yaxınlıq, qarşılıqlı anlam, birgə fəaliyyət, dialoq halları da olmuşdur. Onlar müxtəlif dini etiqadlara və rituallara sahib olsalar da, qarşılaşdıqları mürəkkəb problemləri birlikdə həll edə bilmişlər.

Görkəmli ərəb mütəfəkkiri Əl-Həsən bin Təlali deyirdi: "Bütövləşmə əsasında biz mədəniyyətlərin həmrəyliyinə, birləşməsinə lazımi şərait yaradacağıq. Yeni sosial-iqtisadi modellər dünyanı sözsüz ki, daha da zənginləşdirəcəkdir". O, sözünə davam edərək demişdir: "İndi biz dini dözümsüzlüyə yol verməməliyik. Məlumatın azad mübadiləsini təmin edərək dünyaya, öz müqəddəs kitablarımıza, digər dinlərin müqəddəs kitablarına yeni gözlə baxaraq, bizi ayıran cəhətləri aradan götürməli, bizi birləşdirən cəhətləri ümumiləşdirməliyik". Çox yerində deyilmişdir. Bu fikir mədəniyyətləri və dinləri biri-birinə qarşı qoyanlara ibrət dərsi olmalıdır.

Mədəniyyətlər və dinlərarası əməkdaşlıq və dialoqda digər dinlərdən fərqli olaraq islam dininin xüsusi yeri və rolu vardır. İslam geniş və əhatəli dünyagörüşü olmaqla həyatın bütün sahələrində, o cümlədən, qlobal təbiət və cəmiyyət hadisələrinə münasibətdə öz yeri və mövqeyi olmaqla yanaşı, digər dinlər arasında xüsusilə fərqlənir. Onun qlobal hadisələrə özünəməxsus münasibəti müəyyən əxlaqi prinsiplər və dəyərlər üzərində qurulmuşdur.

Dözümlülük, xeyirxahlıq, tolerantlıq islamın mahiyyətini təşkil edir. Tolerantlıq islamın əsas müddəaları və təlimi ilə səslənən ümumi mənəvi prinsiplərə əsaslanır. İslama görə tolerantlıq müxtəlif inanclı insanlar arasında bir növ körpüdür. Allah buyurur: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq". "Qurani-Kərim"də deyilir: "Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana ("Tövrat"a və "İncil"ə) inandıq".

İslam dini azadfikirlilik və humanizm, sülh və əmin-amanlıq dinidir. Müxtəlif xristian və yəhudi icmaları islam dünyasında öz dünyalarını yaratmışlar. İslam dünyasında başqa dindən olanlara qarşı peşə və yaşam fərqləri yoxdur. Buna əyani misal olaraq IX əsrdə Xilafətin paytaxtı olan Bağdadda xristian icmasının başında saray həkimi olan xristian dururdu. Yəhudi icmasının başında dayanan saray bankiri isə yəhudi idi. Adam Mets yazırdı: "Müsəlman imperiyasında adamı ən çox mat qoyan başqalarından olan məmurların çoxluğudur. Müsəlmanlar hətta bu məmurlara tabe olurdular, din bir növ müxtəlif əqidəli insanları birləşdirən, barışdıran mənəviyyatdır". XI əsrdə xəlifə Harun-ər Rəşidin hakimiyyəti dövründə Bağdad mədəniyyətin mərkəzinə çevrilmişdi. Harun-ər Rəşid haqqında dövrün görkəmli mütəfəkkirləri çox maraqlı fikirlər söyləyirdilər ki, əzəməti istedad sahiblərini daim maqnit kimi özünə çəkirdi. Onun ətrafında şairlər, fəqihlər, həkimlər, dilçilər, sənətkarlar toplanmışdı. Y.Risler yazırdı ki, tarixdə belə şey olmamışdır ki, Harun-ər Rəşidin dövründə olduğu kimi, bu qədər görkəmli alim və sənətkar toplanmış olsun. Çünki onun dövrü inkişaf etmiş mədəniyyət dövrü idi. Bütün bunlar islam dinini digər dinlərdən, dini-mənəvi ənənələrdən köklü surətdə fərqləndirən cəhətlərdir. Ümumiyyətlə, din milli-mənəvi dəyərlər sistemidir. Din mədəniyyətin, mədəni tərəqqinin mühüm tərəflərindən biri olmaqla yanaşı, həm də gerçəkliyi özünəxas olan spesifik şəkildə dərk etmək vasitəsidir. İnsanlığın ilkin dövrlərində, hətta sonralar da dini etiqad və təsəvvürlər sadəlövh şəkildə olsa da dünyanın qavranılması, dərk edilməsinə xidmət etmiş, onu maraqlandıran suallara cavab axtarmışdır.

Müasir qloballaşma şəraitində bəşəriyyətin bütün sahələrdə onun ümumplanetar vəhdəti və birliyi genişlənir, gələcək perspektivini müəyyən edən ümumi sistem yaranır. Bu sistemdə Şərq və Qərb mədəniyyətləri öz yerlərini müəyyənləşdirir, aralarında yaxınlaşma və dialoq prosesi daha da sürətlənir. Bu isə istisnasız olaraq islam dünyasında xristian amilinin, xristian dünyasında isə islam amilinin daha da güclənməsinə səbəb olur. Bunu da unutmayaq ki, müasir dövrdə islam mədəniyyətinin xristian dünyasına necə böyük təsir göstərməsi artıq bir reallıqdır.

Bütövlükdə islam mədəniyyəti bəşəriyyətin sosial-mədəni tarixi və inkişafı ilə bilavasitə bağlı olan mənəvi-etik, elmi-fəlsəfi ideya və baxışları özündə birləşdirən tam, vahid mədəniyyətdir. Məhz bu baxımdan bəşər mədəniyyətinin inkişafında xüsusi bir mərhələ təşkil edən islam dinini, onun tarixi rolunu və yerini araşdırıb öyrənmədən insanlıq dünya mədəniyyətindən bir növ təcrid olunmuş olardı.

**Əlipaşa ƏLİYEV,**
**Fəlsəfə üzrə elmlər doktoru, professor.**